BUILDING TRUST

MƏHSULUN MƏLUMAT VƏRƏQİ

Sika® Stabilizer-1111 TBM

Tunelqazma maşınlarında (TBM) heterogen qruntlar üçün polimerlə modifikasiya olunmuş köpükləndirici əlavə

TƏSVİR

Sika® Stabilizer-1111 TBM, yumşaq qrunt şəraitində və tunelqazma maşınının (TBM) metal hissələrinin aşınmasına səbəb olan, güclü su axınına məruz qalan qumlu qruntlarda qruntun xüsusiyyətlərini tənzimləmək üçün istifadə olunan köpükləndirici əlavədir. Sika® Stabilizer-1111 TBM, qazılmış qruntun reoloji xüsusiyyətlərini və qazma üzünün stabilliyini təkmilləşdirir. Qruntun qazma kamerasından kənara çıxarılmasını asanlaşdırır. Sika® Stabilizer-1111 TBM məhsulunun əsas komponenti OECD 301 D metoduna əsasən asanlıqla bioloji parçalanır.

İSTİFADƏ YERLƏRİ

Sika® Stabilizer-1111 TBM aşağıdakı məqsədlər üçün istifadə olunur:
İstənilən su miqdarı yüksək olan abraziv qumlu qruntlu mühitlərdə.

ÜSTÜNLÜKLƏRİ

- Abraziv qumlu qruntlarda qazma zamanı TBM-in metal hissələrinin aşınmasını azaldır
- Qazma üzünü dəstəkləyən təzyiqi və onun idarə olunmasını yaxşılaşdırır
- Temperatur aşağı düşdükdə sabit və homogen qalır
- Qazılmış qruntun tuneldən və qrunt toplama çuxurundan çıxarılmasını asanlaşdırır
- Tunelin qazılma müddətini azaldır
- TBM-in texniki xidmət xərclərini azaldır
- Yer səthinin çökməsi riskini azaldır
- Qruntun davranışını yaxşılaşdırır
- Qruntun su keçiriciliyini çox sürətlə azaldır
- Qruntda plastik deformasiya xüsusiyyətləri yaradaraq qazma üzünün dayanıqlığını artırır
- Kəsici başlıq və sipər sahəsində qruntun daxili sürtünməsini və abrazivliyini azaldır

MATERIAL MƏLUMATI

Kimyəvi əsası	Səthi-aktiv maddə	
Qablaşdırma	Tökmə-açıq	Tanker
	IBC konteyner	1000 L
Görünüş və rəng	Şəffaf, maye	
Saxlama Müddəti	İstehsal tarixindən etibarən 12 ay.	
Saxlama Şərtləri	Məhsul orijinal, açılmamış, zədələnməmiş və kip bağlanmış qablaşdırmada, quru şəraitdə, +5 °C ilə +40 °C arasında temperaturda saxlanılmalıdır. Qablaşdırmanın üzərindəki məlumatlara baxın. Məhsulun donmasına yol verməyin. Təhlükəsiz istifadə və saxlama barədə məlumat üçün qüvvədə olan Təhlükəsizlik Məlumat Vərəqinə baxın.	
Sıxlığı	(1.040 ± 0.025) kg/L	(EN ISO 2811-1)

TƏTBİQ MƏLUMATI

Tövsiyyə olunan doza	Məhsul, qruntun abrazivlik indeksindən (CAI indeksi) və yeraltı su təzyiqindən asılı olaraq, adətən 1–3 % konsentrasiyalı sulu məhlul şəklində istifadə olunur. Əlavə məlumat üçün Sika Texniki Xidmətinə müraciət edin.
Sərfiyyat	1–3 %

SİSTEM MƏLUMATI

Uyğunluq	Sika® əlavələri və digər Sika® məhsulları ilə uyğundur. Əlavə məlumat üçün Sika Texniki Xidmətinə müraciət edin.

MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

TƏTBİQ TƏLİMATLARI

TƏTBİQ

1. Konsentrasiya (Cf), FER və FIR kimi köpük inyeksiyası parametrlərini müəyyən etmək üçün laboratoriyada ilkin sınaqlar aparın.
2. Məhsul bütün EPB maşınlarında quraşdırılmış standart köpük generatorları ilə istifadə olunur. Məhsulu kəsici başlığın ön hissəsinə, qazma kamerasına və ya şnekli konveyerə inyeksiya edin.
3. Məhsulun effektivliyinə nəzarət etmək üçün TBM məlumatlarını müntəzəm olaraq təhlil edin və lazım gəldikdə dozalama parametrlərini tənzimləyin.

YERLİ MƏHDUDİYYƏTLƏR

Qeyd edək ki, xüsusi yerli qaydalar nəticəsində bu məhsul üçün elan edilmiş məlumatlar və tövsiyə olunan istifadələr ölkədən ölkəyə dəyişə bilər. Dəqiq məhsul məlumatları və istifadələri üçün yerli Məhsul Məlumat Vərəqinə müraciət edin.

HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

Sika Azərbaycan MMC
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12